# Tovuzda 27 Sentyabr - Anım Günü ərəfəsində şəhid ailələri ziyarət edilir

Tovuzda 27 Sentyabr - Anım Günü ərəfəsində rayon rəhbərliyi şəhid ailələrini ziyarət edir. Bir neçə gün əvvəl başlanan ziyarətdə şəhid ailələrinin qayğı və problemləri öyrənilir, onların həlli istiqamətində tədbirlər görülür.



Qısa vaxt ərzində Tovuz şəhərində Cəlilov Elcan Famil oğlunun, Nağıyev Pərviz Güloğlan oğlunun, Qovlar şəhərində Həsənov Xətai Xaliq oğlunun, Abbasov Zülfüqar Bayram oğlunun, Vəliyev Nurlan Habil oğlunun, Abulbəyli kəndində Mahmudov Emin Pünhan oğlunun, Dönük Qırıqlı kəndində Sultanov Nurlan Yaşar oğlunun, Düz Qırıqlı kəndində Əliyev Asim Nuru oğlunun,  Salmanov Sahil Vüqar oğlunun, Bədirov Nəcməddin Nürəddin oğlunun, Əyyublu kəndində Qurbanov Vahid Elşad oğlunun, Mirzəyev Ceyhun Zirəddin oğlunun, Aran Yanıqlı kəndində Heydərov Vasif Nazim oğlunun ailələri ziyarət edilmiş, onların arzu və istəkləri dinlənilmişdir.

Keçirilən görüşlərdən sonra şəhidlərin məzarları da ziyarət olunur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 24 sentyabr.- S.6.